**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

**Q Ə R A R**

**№ 4**

**Bakı şəhəri** **13 oktyabr 2021-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Röyal Zahid oğlu Məmmədovun Qazax Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il avqustun 26-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədov Röyal Zahid oğlu Qazax Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2021-ci il 24 may tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2021-ci il avqustun 26-da Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Gündüz Məmmədov, Dövlət İmtahan Mərkəzinin məsləhətçisi Hidayət Cavadlı və müstəqil ekspert Vəfa Nəcəfovadan ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədov Röyal Zahid oğluna müsahibə komissiyasının üzvlərindən G.Məmmədov və H.Cavadlı 15 bal, V.Nəcəfova 15 bal vermiş və nəticədə iştirakçı 15 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 06.09.2021-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərindən Dövlət İmtahan Mərkəzinin nümayəndəsi H.Cavadlının və Komitənin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri G.Məmmədovun çıxışlarına əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Məmmədov Röyal Zahid oğlunun 06.09.2021-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Qazax Rayon Statistika İdarəsinin aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2021-ci il avqustun 26-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**